# GÖZLƏNİLMƏZ GÖRÜŞ



*Qəzənfər KAZIMOV, professor*

*(Əvvəli ötən sayımızda)*

1988-ci ildə SSRİ xalq deputatları namizədləri sırasında Əndican vilayətindən 13 nəfərin namizədliyi irəli sürülmüşdür. Özbəkistan KP MK-nın Birinci katibi R.N.Nişanov bu vilayətdən namizədlərin xeyrinə öz namizədliyini geri götürmüşdür. Namizədlərin adları arasında birinci yerdə Əndican «Elektrik mühərrikləri zavodu»nun direktoru Valeh Orucovun adı idi.

Bilavasitə zavodda çıxışlar və namizədlərin müəyyənləşdirilməsi barədə qəzet yazısında deyilir: «Çıxış edənlər qeyd etdilər ki, İ.Musayeva da, X.Muxammedov da, şübhəsiz, yüksək rütbəyə namizəd olmaq üçün layiqdirlər: ictimai işdə onlar irəlidədirlər və kollektivin hörmətini qazanmışlar. Lakin baş texnoloq L.İ.Umerovanın və iqtisadi məsələlər üzrə direktor müavini L.V.Jukovanın dediyi kimi, xalq deputatı seçilmək üçün V.L.Orucov daha yüksək keyfiyyətlərə malikdir. Bu adam öz təbiətinə görə qeyri-adi adamdır, böyük işlər üçün, mürəkkəb və məsul məsələlərin həlli üçün yaranmışdır. Bir ildə zavodu dağılmaqdan xilas etməyə, fəhlələrin əmək şəraitini yaxşılaşdırmağa nail oldu...»

Buna görə 97-ci Əndican milli-inzibati seçki dairəsindən SSRİ xalq deputatlığına böyük səs çoxluğu ilə Valeh Lətif oğlu Orucovun namizədliyini irəli sürdülər». (« Ł æ Œ ° 1988)

Lakin əvvəli müharibəyə düşən biz nəslin haqq yolu axıra da varmır. Qeyd etdiyi faciə onun bu şansının da qarşısına hasar çəkmişdir.

Nə qədər xeyir verə bilərdi. Əndicana gedib, təyinatın üstünə «iş yoxdur» yazdırıb, Azərbaycana gəlib. Lakin iş tapa bilmədiyi üçün yenidən Özbəkistana qayıtmalı olub...

Dünya elə həmişə belə gəlib, belə də gedib. Deyir:

Dünya üçün özün oda atanın
Su yerinə qanın içib ruzigar.

* * *

Məktubdan bir neçə ay keçmiş, Valeh yazılarını göndərdi mənə. Onları bir neçə dəfə diqqətlə oxudum. Aydın oldu ki, Valeh hədsiz dərəcədə müdrikləşib, gənclik illərindəki sevgi, məhəbbət, vətənpərvərlik, insana qayğı, el dərdi, vətən dərdi kimi hissləri son dərəcə kamilləşib. Valeh uzaqda olsa da, Vətənin hər bir dərdindən xəbərdardır, onun kədəri ilə kədərlənib, sevinci ilə sevinib. Valehin «yazılarım» dediyi, şeir adlandırmağa ehtiyat etdiyi, 62 yaşdan sonra qələmə aldığı bu əsərlər, hər şeydən əvvəl, zəngin fikir aləmi ilə diqqəti cəlb edir. Bu şeirlərdə hər dəqiqə kamil qafiyə axtarmaq, vəzn, heca tənasübü görmək mümkün olmasa da, bunlar dərin məzmunu, insana, vətənə məhəbbət duyğularının zənginliyi ilə seçilir. Valehdə el sevgisi çox güclüdür, yazıları başdan-başa fikir poeziyasıdır. Hikmətlər, nəsihətlər, təmsillər, xalq məsələləri əsasında yazılan şeirlər, elin köç adətləri, tərəkəmə həyatının poeziyası, II Dünya müharibəsinin törətdiyi fəlakətlər və onların ürək yanğısı ilə təsviri onun yazılarının əsasını təşkil edir. Onun poeziyası sənətkarlıq baxımından qüsurlu görünsə də, fikir poeziyası kimi maraqlıdır. Onun yazdıqlarının hamısı bizim başımıza gələnlərdir. Valeh bizim nəslin faciələrini qələmə alarkən onları bir daha yaşamalı olmuşdur. Hadisələrin real və təbii təsviri o dövrün şahidi olmuş insanları bir daha o dövrə qaytarır, o dövrün havasına daxil edir. «Atamın nağılı», «Mənim faciəm» kimi əsərləri nə qədər təbii, axarlı və səmimidir! Səmimiyyət bütün şeirlərində əsas keyfiyyətlərdəndir.

Bir də bu şeirlərdə Sevil dərdi... Kitabın ikinci hissəsində bu gənc, lakin yüksək istedad sahibi olan, insana, cəmiyyətə, yaradılışa aid orijinal düşüncələri ilə tanış olduğumuz gənc Sevilin gündəliyindən parçalar, məhəbbət dolu şeirlərindən əldə edilənlər verilmişdir. Sevil öz taleyinin milyon illər əvvəldən ruh aləmində müəyyən edildiyi qənaətində olmuşdur. Bu cür düşüncə tam Füzuliyanə düşüncədir:

Ey çərx, bu əqd olanda möhkəm,
Bəlkə yox idin arada həm sən -

deyən Füzuli cəmiyyətin ölçüsüz maneələrinə baxmayaraq, Leyli ilə Məcnun kəbininin bu fırlanan çərxdən çox-çox əvvəl ruh aləmində kəsilmiş olduğunu bildirir. Məhəbbət və ruh dünyası ilə bağlı belə əfsanəvi görüşə malik 17 yaşlı bir mələk kimi gözəl qız oxucunu dərin düşüncələrə qərq edir. Doğru deyirlər ki, yüksək istedadla doğulanlar əksərən fiziki cəhətdən çox yaşamırlar.

Valeh icazə verirdi ki, mən bu şeirlərdə istədiyim dəyişiklikləri edim. Amma mən heç bir ciddi dəyişiklik etmədim, yalnız cüzi üslub səhvlərini aradan qaldırmağa çalışdım. Bunlar elə belə də gözəldir. Valeh şair olub şairlər cərgəsinə adını yazdırmaq fikrində deyildir, sadəcə olaraq, öz dərdlərini, vətənin dərdlərini və bir də unudulması mümkün olmayan Sevil dərdlərini ürək yanğısı ilə qələmə almalı olmuşdur. Daha dəqiq desək, ömrünün ahıl vaxtlarında bu dərdlər onu kövrəltmiş, qəhərləndirmiş, dilləndirmişdir. Bunlar elə dərdlərdir ki, bunları bizim nəslin hamısı yaşamışdır. Birimiz publisistika, birimiz poeziya, birimiz başqa bir yolla öz ürək dərdlərimizi izah etməli, bununla, az da olsa, təsəlli tapmalı olmuşuq.

Bütün bunlarla yanaşı, deyə bilərəm ki, əgər Valeh gənclik illərindən poeziya aləminə düşsə idi, böyük şair ola bilərdi. Buna onun istedadı, zəngin müşayisələri, təbii poetik təhkiyəsi, bilik və tədqiqatçılıq qabiliyyəti inam yaradır. Ömrünün böyük hissəsini yadlar arasında yaşamasına, çoxlu dil bilməsinə, texnika sahəsində elmi işlə məşğul olmasına, daim elmi-texniki tərəqqiyə xidmət və rəhbərlik etməsinə baxmayaraq, ana dilini, onun duzunu, şəhdini-şəkərini, elimizin adətlərini əsla unutmayıb. Görüşə bilmədiyimiz bu uzun müddət ərzində Valeh yüksələn xətlə irəliləyib, daim öz bilik və istedadını artırıb. Valeh bir insan kimi, bir ailə sahibi, bir vətəndaş kimi yaxşı yaşayıb, yaxşı işləyib, şərəfli ömür yolu keçib, lakin tarixin burulğanında qəflətən sevimli övladını faciəli şəkildə itirməsi onun belini əyib. Qeyri-kamil insanlar daha çox lənətə layiqdir.

İndi o da, mən də 70-i keçmişik. Yəqin ki, ya orda, ya burda bir gün qucaqlaşıb görüşərik. Dünyanın dərdləri isə elə dünyanın özündə qalacaq.

**06.11.2006**

## ÖZ YAZDIĞI ÖMÜRNAMƏSİ

Mənim üç «anadan doğma» günlərim var. Birincisi rəhmətlik anamın dediyinə görə 13 avqust 1937, doğum şəhadətnaməsinə görə 7 dekabr 1937, pasportda isə 29 dekabr 1937. Ən çox inanıram anam deyənə. Onun dediyinə görə yayda, istirahət günündə, günorta vaxtı dünyaya gəlmişəm. Sənədlərdəki səhv isə, məncə, əmim oğlu Telmanla əlaqədardır. O, dünyaya qışda gəlib. Görünür, dəyişiklik olub haradasa. 13 rəqəminə ona görə çox inanıram ki, bu rəqəm mənim həyatımda tez-tez qarşıma çıxır. Məsələn, məktəbdə oxuyanda sinif jurnalında mən 13-cü idim. 13 iyun 1955-ci ildə attestat aldım. 13 iyul 1955-ci ildə Bakıya gedib sənədlərimi Azərbaycan Sənaye İnstitutuna verdim. 13 nömrəli qrupda abituriyent oldum. İnstitutda 213-cü qrupda 5 il tələbə oldum. 26:2=13 avqust 1960-cı ildə Özbəkistana işə yola düşdüm. Bir ildən sonra 13 sentyabr 1961-ci ildə evləndim. 13.10.1961-ci ildə mühəndis vəzifəsinə keçirildim. O vaxtacan çilingər işləyirdim. 26:2=13 mart 1966-cı ildə «Özbəkistan» birliyinin texnologiya şöbəsinə müdir oldum. 13 avqust 1966-cı ildə «Cərnurqanneft» neft-mədənlər idarəsində baş mühəndis işinə başladım. 26:2=13.11.1974 SSRİ Neft Nazirliyinin Fəxri fərmanı ilə təltif olundum, 13.04.1977-ci ildə VDNX SSRİ-nin gümüş medalını aldım. 13.10.1987 Əndican «Elektrik mühərrikləri» zavodunun baş direktoru təyin olundum. 13 may 1990-cı ildən Əndicandan Krıma getməli oldum. 26.08.1990-cı ildə Krımda zavodda konstruktor-texnologiya şöbəsinə rəhbərlik işinə qərar verdim. 26:2=13 may 1972-ci ildə texnika elmləri namizədliyi dissertasiyasını müdafiə etdim. Simferopolda 213№-li yol sahəsini aldım - ev tikmək üçün. Sonra tikdiyim evin nömrəsi 346 oldu, bu da 3+4+6=13 deməkdir. Şəhərin mərkəzindən mən yaşadığım küçəyə 13 №-li trolleybus hərəkət edir. Bu yaxınlara kimi 10 ildən çox ev telefonumun nömrəsi 24-00-16, bu da 2+4+0+1+6=13 deməkdir. Bu nə deməkdir?! Təsadüf? Hamının qorxduğu bu 13 rəqəmi mənim üçün nədir? Axırıncı dəfə mərhum qızım Sevil ilə telefonda (Simferepol-Əndican) vidalaşmağım da 13.06. 1991-ci ildir. Elə bu gün də evi tikmək üçün təzə aldığım «Moskviç 421»i satmalı oldum. Bu səbəbdən mən çox əminəm ki, mən 13 avqust 1937-ci ildə anadan olmuşam. Ömrüm boyu bu günü anadan olma günü kimi qeyd edirəm. Bütün qohum-tanışlar məni bu gün təbrik edirlər.




1945-ci ildə sentyabrın axırlarında Soltanlı kənd orta məktəbində oxumağa başladım. Gec oxumağımın səbəbi - mənim hər il Qumlaxlı babam Ağaların ailəsi ilə dağa-yaylağa - Bazarçaya getməyim idi. 1954-cü ilə kimi (ermənilər bizi tərəkəmə yaylaqlarına - Bazarçaya köç etməyə qadağa qoyana kimi) mən hər il mayın axırları və sentyabrın əvvəlləri dərsi buraxmalı olurdum. Hər dəfə babam (anamın əmisi) Ağalar bəy Qumlaxdan Soltanlıya at sürüb məni aparmağa gələndə (gilənar, gilasa dən düşəndə, mən də meyvə yeməyi çox sevərdim) mən müqavimət göstərib deyərdim: «Ay kişi, hələ dərslər qurtarmayıb!» Babam həmişə gülər və deyərdi: «Burda bir küçüyümüz var, gəlmişəm onu aparam dağa ki, yayda ağzına milçək düşməyə». Mən incisəm də, sonra razı olardım. Onun atının tərkinə minib, hamı ilə vidalaşab Diri dağının ətəyindən ötüb Qumlağa çatardıq. Bu yolu gedəndə yemlik otları arasından əfi ilanlar atın ayağı altından sürüşüb qaçardı. Hələ də qulağımda babamın oxuduğu bayatılar, gözüm qarşısında isə onun gözlərindən axan yaşlar durur. Babam müharibədə həlak olmuş ilk oğlu Mahmudu ağlardı. Müharibənin başladığı birinci günü yaxşı yadımda saxlayıram. O günü bizim kəndin üstündən sovet təyyarələri İrana tərəf uçurdular. 1941-1945-ci illərdə biz kənd əhli necə yaşamışdıq, bu çox uzun sualdı. Bu haqda çox acı xatirələrim var. Onların haqqında indi danışmayacağam.

Orta məktəbdə mən əlaçı oxuyurdum. Mənimlə birgə sinifdə 8-10 nəfər əlaçı var idi. İndi onlardan onlarca istedadlı mütəxəssis var, 2 nəfər isə elmlər doktoru, professor adı alıblar. Qəzənfər Kazımov və Hüseyn Hüseynov. Məktəbi qurtaranda mənə, Hüseynə, Sərdara və Qəzənfərə (qızıl) medal verməki istəyirdilər. Buna da üstüörtülü pul tələb olundu. Ancaq bizim valideynlərin gücü çatmadığı üçün sonra Azərbaycan və rus dili yazı imtahanlarından bizə «dörd» yazdılar, adi attestat verdilər. Çoxumuz ali məktəblərə qəbul olunduq.

1955-1960-cı illəri Azərbaycan Neft və Kimya İnstitutunun Neft-mədən fakültəsində oxudum. Təyinatım Özbəkistana düşdü. Ata-anamın yalvarışına qulaq asıb, Daşkəndə uçub, gələn günü sərbəst işə düzəlmək kağızı ilə Bakıya qayıtdım. Ancaq Bakıda «Azneft» birliyində mənə iş vermədilər. Kadrlar şöbəsi müdiri N.Babayev mənə acıqlandı: Kağızın Özbəkistanadır, rədd ol oraya get, - dedi.

Bakıda yarım ay səfil qaldım. İş yox, yaşamaq yeri yox. Əlimdə olan pullar azaldı, hər şeydən əlacım kəsildi. Yaxşı ki, təyinat kağızını tullamamışdım. İndi artıq təyyarəyə deyil, gəmiyə mindim - Krasnovodska, oradan qatarla Əndicana gəldim. «Fərqananeftqaz» birliyinin rəisi O.İbrahimov (özbək) mənim familimi «Orucov» görüb soruşdu: «Tı çto, rodstvennik Sabit Ataeviça?» (məşhur azərbaycanlı S.A.Orucov SSRİ Neft Nazirinin birinci müavini idi, sonralar isə SSRİ Qaz Sənayesi Naziri, f.e.d., prof, Sosialist Əməyi Qəhrəmanı idi).

Mən qəhərlənib cavab verdim: «Zaçem mne Sabit Ataeviç, ya sam Orudjev!».

O birisi günü artıq «Əndican» neft mədənində işə başladım. Burada 20 gün idi, mənimlə institutu bitirən, yataqxanada bir otaqda qalan Xudatlı ləzgi oğlan Abuzər Eyyubov usta vəzifəsində çalışırdı. Yadımdadır, o, bələdçi olub məni mədən idarəsinə gətirdi.

*(Davamı var)*